# Xalq-Dövlət, Dövlət-Xalq günü - bu günün 17 noyabrı

*Cavi Dan*

1988-ci ilin noyabrında Azərbaycan illərlə yatan, sonra oyanıb bu illərin hər anında içinə yığılan ağrısını-acısını alov kimi püskürməyə başlayan vulkana bənzəyirdi. Ədalətlə ədalətsizliyin iç-içə və həm də qarşı-qarşıya dayandığı həmin zaman kəsiyində bu vulkana bənzəyən Od ölkəsi öz yumruğunu düyünlədi, səsini qaldırdı, kimliyimizi bütün dünyaya bəyan etməkdən çəkinmədi. Bu, MİLLİ DİRÇƏLİŞ idi! 1988-ci ilin 17 noyabrında Azərbaycan xalqı bir nəfər kimi Azadlıq meydanına toplaşmışdı. Hamı Qarabağda baş verən erməni xəyanətinə, erməni təxribatına, onların müharibə üçün zəmin yaratmaq cəhdlərinə o vaxtkı Sovet rəhbərliyinin açıq-aşkar ermənipərəst mövqeyi sərgiləməsinə qarşı haqq çağırışına çıxmışdı. Bu, Azərbaycanın ilk ən böyük etiraz mitinqi idi və həmin dövr üçün miqyası ölçüyəgəlməz dərəcədə böyük cəsarət tələb edirdi. Bizdən çox-çox sonralar, 1989-cu il bütün dünyada İnqilablar ili kimi tarixin yaddaşında öz yerini tutacaqdı. İndi dönüb arxaya baxdığımız zaman həmin inqilabların fonunda və ən əsası da, başında özümüzü görməyə bilmirik. Özümüzü, yeni Azərbaycanı.

İndi o zamandan nə az, nə çox, düz 33 il keçir.

Bu 33 il ərzində xalqımız nələr yaşadı, ölkəmiz hansı sınaqlardan keçdi...hamısını hamımız bilirik.

Bildiyimiz üçün də bu gün həmin o ilk Milli Dirçəliş günümüzü qürurla, fəxarətlə yada salırıq.

Və düz 33 il əvvəlki gündə, 17 noyabr 1988-ci il mitinqində sadalanan tələblərin hər bir bəndinin qarşısında başımız dik, alnımız açıq, üzümüz ağ şəkildə bu günümüzün reallıqlarını qeyd edirik:

1. Bu gün Topxanada Azərbaycan xalqı özünün böyük oğlu, Ali Baş Komandanı, Prezident İlham Əliyevlə, ölkənin birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva ilə bilrikdə yeni pöhrə ağaclar əkir. O pöhrələr yeni, gözəl Azərbaycan tarixinin bahar çağının müjdəsidir.

2. Erməni terrorunun darmadağın etdiyi, sözün həqiqi mənasında daşını daş üstündə qoymadığı, “Qafqazın Xirosiması” adını almış Ağdamda bu gün abadlıq, quruculuq işləri gedir, “Ağıllı kənd”, “Ağıllı şəhər” layihələri gerçəkləşdirilir. Ağdamlılar öz doğma yurdlarına yaşamaq üçün dönəcəkləri günü sevinclə, həyəcanla gözləyirlər.

3. “Status məsələsinə qayıtmaq mümkün deyil, status yoxdur və hər kəs bu məsələni unutmalıdır”. Bu sözləri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev deyir. Və bu sözlər işğaldan azad edilən Qarabağın bugünkü reallığıdır!

4. 17 noyabr 1988-ci il mitinqinin 4-cü və 5-ci bəndləri bugükü Azərbaycan üçün o qədər qeyri-aktualdır ki, onların müqabilində sadəcə təbəssüm edə bilərik. Çünki artıq öz Milli Məclisimiz və Dövlət maraqlarımızı üstün tutan Millət vəkillərimiz var. Küçələrə isə ən sonuncu dəfə elə bir neçə gün bundan əvvəl çıxmışdıq - Böyük Zəfər günümüzü bayram etmək üçün!

Bəli, bu günün Azərbaycanı güclüdür, yenilməzdir, regionda və dünyada öz sözü, öz səsi olan müstəqil, öz ayaqları üstündə dayanmağı bacaran müstəqil ölkədir. Çünki bu günün Azərbaycanı demək Xalq-Dövlət, Dövlət-Xalq birliyi deməkdir.

**Milli Dirçəliş Günümüz mübarək!**